**Orucoğlu Z.** Vətənin qəhrəman oğlu // 525-ci qəzet. - 2025. - 4 mart. - **№ 40**. - S. 14.

**Cəlilabad rayonu, Əsədli kəndində boya-başa çatan Mahir Bəxtiyar oğlu Paşayev İkinci Qarabağ müharibəsində Vətən, torpaq uğrunda şəhidlik zirvəsinə ucalaraq milyonların ürəyində özünə əbədi məkan qurub. Fəqət, Mahir həm də 30 il düşmən tapdağında qalan cənnət məkan Qarabağımızın mərd xilaskar ərənləri kimi tarixin yaddaşında silinməz iz qoyub. Elə bütün bunlara görə onun yaşadığı 23 illik ömür yolu doğma Azərbaycanına, millətinə başdan-başa ilahi bir sevgidir. Mahir torpaq, Vətən yolunda ölməklə bizim üçün ən müqəddəs bir varlığa dönərək əlçatmaz göylərə ucaldı.**

O, kənd məktəbini bitirəndə birinci amalı Vətən torpağını qorumaq və mübarizliklə düşmənə qalib gəlib Qarabağı azad etmək olub. 2015-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edib. Müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirib, vətənpərvər oğul olaraq əsgərlər arasında sayılıb tanınıb. İştirak etdiyi təlimlərdə də bütün sınaqlardan uğur qazanıb. Qəlbində erməni quldurlardan intiqam, qisas almaq alovu get-gedə güclənən Mahir hərbi sirlərə mükəmməl yiyələnib. Və ən əsası cəbhə xəttində yağı düşmənlə qarşı-qarşı dayanmış igid əsgər hər an Vətən torpaqların azadlığı naminə döyüşə atılmağa məqam gözləyib. 2016-cı ilin Aprel döyüşlərində Mahir Paşayev birincilər sırasında silaha sarılıb düşmənə qarşı ölüm-dirim mübarizəsinə girib. Mahir Paşayev Vətən müharibəsində əsl qəhrəmanlıq salnaməsi yazıb, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Hadrut qəsəbəsinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mahir Paşayev oktyabrın 9-da Xocavənd döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.